# Tanrı

## varlıqla yoxluq arasında

Təbriz Qasımov

İBRƏT
NƏŞRLƏRİ

Bakı – 2021

Tanrı
varlıqla yoxluq arasında

Bakı, “İbrət Nəşrləri”, 2021, 76 səh.

Müəllif: Təbriz Qasımov
Elmi redaktor: Emin İmanlı
Ədəbi redaktor: Peyman Məmmədov
Korrektor: Elgün Rəhimli
Dizayner: İbrahim Babayev
Tərtibatçı: Aytən Alışova

“Tusi adına tədris və araşdırma mərkəzi”nin nəzdində
çap olunmuşdur.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş Üzrə Dövlət
Komitəsinin **07 may 2021**-ci il tarixli **DK-442/H** saylı məktubu
əsasında “Max Ofset” MMC-də çap olunmuşdur.

# Mündəricat

*ÖN SÖZ ƏVƏZİ*........................................................5
"Allahın varlığı" mövzusu niyə bu qədər aktualdır? .........7
Elm Allahın varlığını inkar edirmi?...................................10
Nə teizm, nə də ateizm elmdir ..........................................13
Elm adamı inanclı ola bilərmi? .......................................... 15
Din-Tanrı fərqləndirilməsi................................................. 18
Ateizm nədir, kimə ateist deyilir? ...................................... 19
"Tanrı" ideyasını insanmı yaradıb? .................................. 22
Tanrının varlığını isbatlayan dəlil varmı?........................... 24
"Siddiqlərin sübutu" arqumenti ....................................... 27
Rasselin "ilk səbəb" arqumentinə iradı ............................ 31
"Ağıllı dizayn" arqumenti ................................................. 33
Termodinamikanın ikinci qanunu – Entropiya .................. 36
Təkamül nəzəriyyəsi Tanrının varlığını inkar edirmi?......... 39
İkimiz də ateistik? ............................................................ 43
Mən dinə deyil, elmə inanıram......................................... 46
İnanc individualdırmı? ..................................................... 49
Allah varsa, niyə onu görmürük?...................................... 52
Allahın əzəli elmi və "azad iradə" problemi....................... 57
Allah elə bir daş yarada bilərmi ki,
onu özü qaldıra bilməsin? ....................................... 60
"Şər" problemi ................................................................. 62
Şərin növləri .................................................................... 65
Alvin Plantinqa və "azad iradə" arqumenti........................ 66
Şər "yoxluq"dur ............................................................... 68
Şərin zəruriliyi.................................................................. 69
Aqnostik yanaşma ........................................................... 72
Ateizmə yönəlmədə "şər" probleminin təsiri .................... 74

# Ön söz əvəzi

Əlinizdəki bu kitab Tanrının varlığı mövzusunda populyar müstəvidə qələmə alınmış kiçikhəcmli bir əsərdir. Kitabda Tanrının varlığı mövzusu ilə bağlı ateistlərin ortaya atdıqları bir sıra şübhələr elmi-fəlsəfi aspektdən araşdırılmışdır. Hər kəsin oxuyub rahat başa düşməsi üçün kitabı sadə və anlaşıqlı dildə yazıb, mümkün qədər çətin anlaşılan mürəkkəb terminlərdən istifadə etməməyə çalışmışam. Fikrimcə, fəlsəfi kitablar təkcə akademik müstəvidə yazılmamalı, hər kəsin başa düşəcəyi populyar müstəvidə də fəlsəfi kitablar qələmə alınmalıdır. Əksər insanların fəlsəfi kitabları oxumamalarının səbəbi bu sahədə yazılan kitabların dilinin ağır olmasıdır. Ümid edirəm ki, əlinizdəki bu kitab həm məzmun, həm də dil baxımından sizi qane edəcəkdir.

*Təbriz Qasımov*

*06.24.2021*

# “Allahın varlığı” mövzusu niyə bu qədər aktualdır?

Fikrimizcə, niyəsi aydındır. Allahın varlığına inam insana daha fərqli bir “dünya” və “insan” təsəvvürü təqdim edir. İnsan düşünən və sorğulayan bir varlıqdır; özünü və ətraf aləmi anlamaq, yaradılışı dərk etmək istəyir; hər şeyin yox ikən bir anda necə, hansı şəkildə yaranıb ortaya çıxdığına dair məntiqli, rasional bir izahın axtarışındadır. Önündə bir sıra versiya və alternativlər var. Görəsən, suallarına cavab tapmaq üçün yalnız müasir elmin gəldiyi son qənaətlərlə kifayətlənməli, yoxsa dində verilən izahlara da müraciət etməlidir? Çünki bu mövzu təsəvvür edildiyindən də daha ciddidir.

“Allahın varlığı” mövzusunun mənəvi və emosional tərəfi də olduqca önəmlidir. Allaha inam insan həyatında çox ciddi təsirə malikdir. İnsan hər şeyi yaradan, hər şeydən xəbərdar olan, hər şeyə gücü çatan mütləq qüdrət sahibi, mərhəmətli və rəhmli bir metafizik həqiqətin var olduğuna inanaraq yaşadıqda, həyat ilə bağlı olan baxışları, hissləri, emosiyalari, davranışları tam fərqli bir rəng alır. İnanclı insan üçün Allah, tənha

qalanda sığındığı, heç kimə deyə bilmədiyi dərdlərini rahat şəkildə danışdığı, hər kəsdən ümidini kəsdikdə əl açıb yardım dilədiyi ən yaxın, ən məhrəm, ən doğma, ən mehriban dostdur. Bu hiss insana əvəzolunmaz rahatlıq bəxş edir. Elə bir rahatlıq ki, onu dadan və yaşayan şəxs onu dünyanın heç bir sərvəti, naz-neməti ilə dəyişməz.

Məhz buna görə "Allahın varlığı" mövzusu həmişə aktual olaraq qalır. Lakin insan aldanmaq istəmir. Bu onun təbii haqqıdır. Sığındığı, dara düşdükdə əl açıb dua etdiyi və çağırdığı Allahın gerçək, real olmağını arzulayır. Heç kim yalnız zehinlərdə olan və insan fantaziyasının məhsulu sayılan saxta bir şeyə inanmaq, onu gerçək sanıb könül bağlamaq istəməz. Sırf rahatlamaq xatirinə gerçək olmayan bir şeyi müqəddəsləşdirərək ona inanmaq düzgün deyil. Rahatlamağa qalsa, yoqa kimi insana rahatlıq bəxş edən çoxlu sayda spiritual (ruhi) təlimlər var.

Həmçinin Allahın var olduğuna inanmayan şəxs bu inkarının məhz sağlam, tutarlı və rasional səbəblərə söykəndiyinə əmin olmaq istəyər. Axı heç bir sağlam təhlil və məntiqli izaha əsaslanmayan inkar kimə, nəyə lazımdır? Kiminsə özü üçün belə bir şey arzuladığına inanmaq çətindir. Ən azı, gerçək olanı inkar etmək in-

sanlıqla, rasional bir varlıq olmaqla uzlaşmır. Bu, insanın düşünən və sorğulayan təbiəti ilə daban-dabana ziddir. Fikrimizcə, "Allah" mövzusunun həmişə aktual olmasının arxasındakı əsas faktorlar bunlardır.

# Elm Allahın varlığını inkar edirmi?

Hazırda “elm” anlayışı Qərb dünyasında tamamilə fərqli mənada istifadə edilir. Əvvəllər “elm” anlayışı humanitar və təcrübi elmlərin hamısına şamil olurdu. Məsələn, fəlsəfə, ədəbiyyat, tarix və s. kimi sahələr “elm” hesab olunurdu. Lakin son 400 ildə Qərbdə meydana gələn intibah dövründən bu yana “elm” anlayışının əhatə dairəsi getdikcə daralmağa başladı. İndi qərbin akademik camiəsində “elm” (science) dedikdə, “təcrübi elmlər” nəzədə tutulur. Elmi bu mənada qəbul edən kiminləsə oturub elmi müzakirə apararkən, ona ədəbiyyatdan, fəlsəfədən, dindən sitatlar gətirsəniz, opponentiniz sizin fikirlərinizi heç vaxt ciddi qəbul etməyəcək. Halbuki qədimdə fəlsəfə bütün elmlərin şahı hesab olunurdu.

Gəlin yuxarıdakı sualı bu kontekstdə araşdıraq. Elm, yəni fizika, kimya, biologiya kimi təcrübi elmlər Allahın varlığını inkar edirmi?

Bu suala dolğun və obyektiv cavab tapmaq üçün əvvəlcə elmin predmeti, yəni mövzusu və metodologiyasını araşdırmalıyıq. Elm nəyi araşdırır və bunu necə, hansı yollarla edir?

Təcrübi elmlərin mövzusu istisnasız olaraq materiyadır. Məsələn, fizika təbiəti, biologiya canlıları araşdırır və s. Metodologiya isə müşahidə və təcrübəyə əsaslanır. Yəni, məsələn, "Ümumdünya cazibə qanunu"nu, "Nisbilik nəzəriyyəsi"ni, "Kvant fizikası"nı, insan anatomiyasını, orqanların fəaliyyət mexanizmini, xəstələndiyi zaman müalicə yollarını öyrənmək üçün mütləq müşahidə etmək, uzun-uzadı təcrübələr aparmaq lazımdır. Təcrübi elmlərdə fəlsəfə, şeir, ədəbiyyat, tarix və din heç bir önəm kəsb etmir. Elm adamını maraqlandıran yeganə şey fakt və sübutdur; özü də yuxarıda qeyd olunan metodologiya ilə əldə olunan fakt və sübut.

Bu qısa izahdan elmin mövzusunun heç vaxt metafizik – qeyri-maddi – nəsnələr ola bilmədiyi aydın olur, çünki metafizik nəsnələr hiss üzvlərimizlə qavranılan cinsdən olan varlıqlar deyillər. Nəticədə "Allahın varlığı" mövzusu bir fizik və ya bioloq üçün ixtisasdan kənar mövzu hesab olunur. Deməli, elm Allahın varlığını heç bir şəkildə inkar etmir, çünki "Allah" elmin predmeti deyil. Lakin Onu inkar etmədiyi kimi, sübut da etmir. İnsan laboratoriyada müşahidə və təcrübələr aparmaqla nə Allahın varlığını inkar, nə də isbat edə bilər.

Əlbəttə, bu, təcrübi elmlərlə məşğul olan şəxslərin "Allahın varlığı" mövzusunda heç vaxt fikir bildirə bilmədikləri anlamına gəlmir. Sadəcə olaraq, ixtisası fizi-

ka olan şəxs bu mövzuya daxil olub, fikir bildirərkən artıq bir fizik olaraq fikir bildirmir. O, fizika, biologiya, kimya və astronomiyadan öyrəndiyi məlumatlardan istifadə edərək mövzu barədə fikir formalaşdıra bilər, lakin metafizika barədə danışan andan etibarən artıq fizik kimi deyil, bir filosof kimi fikir bildirmiş olur, çünki metafizik, abstrakt və qeyri-maddi anlayışların müzakirə edildiyi sahə fəlsəfədir. Bu kontekstdə tanınmış fizik Stiven Hokinqin artıq fəlsəfənin öldüyü və bütün suallara elmin cavab verdiyinə dair söylədiyi fikrin nə dərəcədə yanlış olduğu da aydın olur. Fəlsəfə heç vaxt ölməyib. Elm nə qədər inkişaf etsə də, fəlsəfə hər zaman diridir. Hokinqin fəlsəfənin öldüyünə və elmin bütün sualları cavablandıra biləcəyinə dair söylədiyi fikrin özü belə, əslində, fəlsəfi fikirdir. Aristotel demişkən, fəlsəfəni inkar etmək üçün mütləq fəlsəfələməli və onun hüdudlarına daxil olmalısan.

## Nə teizm, nə də ateizm elmdir

Hərdən bəzi ateistlər teizmin elmə zidd olduğuna, həqiqi elmin ateizmlə əldə olunacağına və elmə gedən yolun məhz ateizmdən keçdiyinə dair fikirlər səsləndirirlər. Əslində isə elmə gedən yol nə teizmdən, nə də ateizmdən keçir. Ümumiyyətlə, teizm və ateizmlə elmin predmetləri, metodologiyaları bir-birindən fərqlidir. Teizm və ateizmin ikisi də – biri Allahın varlığına, digəri isə yoxluğuna dair – inancdır. Lakin heç biri elmi metodologiyaya, yəni sırf təcrübə və müşahidəyə əsaslanmır. Əslində, teizm və ateizmin hər biri fəlsəfi təhlillərin nəticəsində ortaya çıxan fərqli qənaətlərdir. Ateist/teist təbiəti araşdıraraq ateist/teist olmur, çünki təbiətin heç bir hissəsində "Allah yoxdur/var" yazılmayıb. Belə olsa, gərək təcrübi elmlərdən anlayışı olmayan heç kim ateist/teist olmasın, yerdə qalanlar isə sırf elm adamları, yaxud da teoloqların fikirlərini kortəbii şəkildə qəbul etməklə ateist, yaxud da teist olsunlar. Bunun rasionallıqdan olduqca uzaq bir yanaşma olması aydın məsələdir.

Yanlış anlaşılmasın deyə qeyd etməliyik ki, teizm və ateizmin elm olmadığını söyləyərkən məqsədimiz elmi

faktlardan istifadə etməyin yanlış olduğunu vurğulamaq deyil. Həm ateistlər, həm də teistlər elmi arqumentlərə istinad edə bilərlər. Sadəcə olaraq, "Allahın varlığı" mövzusunda elmi arqumentlərin birbaşa iştirakı ilə dolayı iştirakının arasında fərq qoymağın lazım olduğuna diqqət çəkmək istəyirik. Ateizm düşüncəsində olan bir şəxs "təkamül nəzəriyyəsi"nə istinad edərək metafizik bir varlığın olmadığı qənaətinə gələ bilər. Bu zaman elmi bir nəzəriyyə olan "təkamül nəzəriyyəsi"nə istinad etsə də, Allahın yoxluğuna dair gəldiyi qənaət birbaşa bu nəzəriyyədən doğmur. Əslində, həmin nəzəriyyənin üzərində fəlsəfi təhlillər apardıqdan sonra bu qənaətə gəlir. Çünki başqa biri eyni nəzəriyyəni fərqli aspektdən təhlil edərək tam fərqli qənaətə gələ bilər. Teistin gördüyü iş də eynilə bu formadadır. O, təbiəti araşdıraraq, onun öz-özünə yarana bilməyəcəyini və üstün bir ağıl tərəfindən yaradıldığını düşünə bilər.

# Elm adamı inanclı ola bilərmi?

Elm adamı Allahın varlığına inana bilərmi, yoxsa mütləq şəkildə ateistmi olmalıdır? “İnana bilərmi?” deyərkən, bunun ontoloji yönünü nəzərdə tutumuruq. Dünyada kifayət qədər inanclı elm adamının olduğu danılmaz bir faktdır. Məqsədimiz bu mümkünlüyün epistemoloji yönünü vurğulamaqdır. Yəni elm adamı ixtisasından dolayı yalnız elmi fakt və sübutlara istinad edir. İddiaya görə heç bir sübutu olmayan, insan təxəyyülünün məhsulu olan yaradıcı bir qüvvənin var olduğuna inanmaq insanın elmi və akademik fəaliyyəti ilə ziddiyyət təşkil etmirmi?

Tanınmış riyaziyyatçı, professor Con Lennoks uzun illərdir bu sözləri eşitdiyini söyləyir. Bunu söyləyənlər sıravi insanlar da deyil, elm adamları, professorlar və Nobel mükafatı laureatlarıdır. Hətta bəziləri bu mövzuda çox ciddidirlər. Tanınmış fizik, Nobel mükafatı laureatı Stiven Veynberq insanların “din” adlı kabusdan oyanmalarının vacib olduğunu və elm adamlarının bu yolda görə biləcəkləri hər şeyin sivilizasiya adına görülmüş ən böyük iş olduğunu söyləyir.

Kembricdə təhsil alarkən Con Lennoksla Nobel mükafatı laureatı olan başqa bir elm adamının arasında keçən dialoq da olduqca maraqlıdır. Həmin alimdən elmi fəaliyyətlərinin dünyagörüşünə, xüsusilə "Allahın varlığı" mövzusuna necə təsir etdiyi barədə soruşduqda, Lennoksu otağa dəvət etmiş və elmi karyerasını davam etdirə bilməyi üçün Allaha inanmağı mütləq şəkildə tərk etməyinə təkid etmişdir. Con Lennoks bu reaksiyadan olduqca təəccüblənmişdir. Belə ki, onun qənaətinə görə, elm adamı Allahın varlığına inana, hətta dindar da ola bilər. Tarixdə – Nyuton, Qaliley, Paskal və s kimi – iz qoymuş bir çox elm adamları dindar olublar. Ola bilər ki, onların dövründə "Kvant fizikası" və "Nisbilik nəzəriyyəsi" hələ kəşf edilməmişdi. Lakin müasir elm adamlarının arasında da inanclıların olmasını, hətta Lennoksun dediyinə görə, son 100 ildə Nobel mükafatı ilə təltif olunan elm adamlarının 60%-nin inanclı olmasını nəzərə aldıqda, elmlə inancın arasında heç bir ziddiyyətin olmadığına şahid olmaq olar. Bunu, ən azı, alternativ bir görüş kimi irəli sürmək olar. Con Lennoksun ən çox şikayətləndiyi şeylərdən biri isə bəzi elm adamlarının, ümumiyyətlə, bu mövzunu müzakirəyə açıq hesab etməmələri və önyarğılı davranmalarıdır. Con Lennoks bunu akademiyanın "qaranlıq tərəfi" (dark side) olaraq səciyyələndirir. Con Lennoks

SSRİ dövründə Novosibirskdəki institutların birində seminar verərkən Nyuton, Qaliley, Paskal və s kimi tanınmış elm adamlarının inanclı olduqlarını söylədikdə zalda əyləşənlərin qəzəbləndiyini görür. Daha sonra ön cərgədə əyləşmiş professorlardan biri adları sadalanan elm adamlarının inanclı olduqlarını ilk dəfə eşitdiklərini və buna görə narahat olduqlarını etiraf edir. Bütün bunlar Lennoksun elmi camiə barədə haqlı narahatlığını təsdiqləyir. Elmi akademiyalarda elmi mühit azad, istənilən mövzu müzakirəyə açıq olmalı və istər teist olsun, istərsə də ateist – heç kim məsələyə önyarğı ilə yanaşmamalıdır.

## Din-Tanrı fərqləndirilməsi

Allahın varlığından danışarkən burada çox önəmli bir nüansa diqqət yetirmək lazımdır. Bəzən dinin əleyhinə tutulan iradların nəticəsi olaraq Allahın varlığı inkar edilir. Məsələn, hansısa ateist xristianlığı tənqid edir və sonda onun təlimlərinin başdan-ayağa cəfəng olduğu qənaətinə gəlir. Bunun ardınca da Allahın var olmadığı nəticəsini çıxarır, yəni dinin yanlış olması ilə Allahın yoxluğunun arasında məntiqi bir əlaqə qurur; "din yanlışdırsa, deməli, Allah da yoxdur" qənaətinə varır. Halbuki bu yanaşma tərzi kökündən yanlışdır. Belə ki, dinin yanlışlığı Allahın varlığını inkar etmək üçün heç bir şəkildə tutarlı səbəb deyil. Bütün dinlərin cəfəng olduğunu fərz etsək belə, bu heç də Allahın yoxluğuna dəlalət etməz, çünki dinin isbatının dəlilləri ilə Allahın varlığının isbatının dəlilləri bir-birindən fərqlidir. Bir insan dindar olmadan da teist, inanclı ola bilər. Allahın varlığını inkar etmək üçün dini təlimlərdən sitatlar gətirməyin yetərli olmamağı da məhz buna görədir.

## Ateizm nədir, kimə ateist deyilir?

Terminləri düzgün anlamaq önəmlidir. Çox vaxt terminlərin yanlış anlaşılması, yaxud da ümumiyyətlə istifadə olunan terminlər haqqında dolğun məlumata sahib olmamaq mövzunun yanlış məcraya sapmasına səbəb olur. Bu, praktikada çox müşahidə olunub. Ona görə də gəlin əvvəlcə "ateizm" sözünün nə məna daşıdığına nəzər salaq.

"Ateizm" – "teizm"in inkar formasıdır. "Teos" yunanca "Tanrı" deməkdir. Teizm – Tanrının var olduğuna dair inancdır. Beləliklə, ateizm də təbiətin fövqündə dayanan heç bir tanrı və ya ilahi varlığın olmadığına dair inancdır. Başqa sözlə, Tanrının varlığını inkar etməkdir. Bu tərifi məqbul saysaq, onda ateizmin də bir inanc və geniş mənada bir din olduğu nəticəsi ortaya çıxır. Bu kontekstdə ateizmlə teizmin hər biri inanc və din hesab olunur. Aralarındakı yeganə fərq isə məzmundadır. Biri Tanrının varlığına, digəri isə onun yoxluğuna inanır.

Tərifdə keçən "inkar" qeydi çox önəmlidir. Ateizm – Tanrının varlığını inkar etməkdir. Deməli, "ateist"

Tanrının varlığını inkar edənə deyilir. İnkar qeydi nəyə görə önəmlidir? Ona görə ki, təsdiq kimi, inkarın da obyektiv və rasional əsasları olmalıdır. Yəni Tanrının var olduğunu təsdiq edən və buna inanan şəxs necə bu təsdiqini rasional arqumentlərlə əsaslandırmalıdırsa, ateist də öz inkarını eyni şəkildə əsaslandırmalıdır. Əlbəttə, bütün teist və ateistlər tutarlı dəlil-sübutlardan istifadə edərək nəticəyə varmayıblar. Bəzilərində bu inanc və ya inancsızlıq sadəcə olaraq psixolojidir. Entoni Flu ateizmin daha çox psixoloji hal olaraq izah edilməsinin tərəfdarıdır. Belə ki, kimsə dində, dindarlarda, dini cəmiyyətlərdə gördüyü nöqsanlardan, həyatda yaşadığı acılardan, başına gələn xoşagəlməz hadisələrdən təngə gəlir, içində yaradana qarşı bir üsyan baş qaldırır və nəticədə ateist olur. Bu, müəyyən mənada doğrudur. Həyatda aldıqları travmalara görə Tanrıdan küsən, hətta Onun var olmadığını özlərinə zorla təlqin edən insanlar var. Lakin bunu bütün ateistlərə şamil etmək də doğru deyil. Ona görə də Entoni Flunun ateizmə verdiyi izah nöqsanlıdır. Üstəlik, bu kontekstdə teizmi də irrasional bir mövqe kimi təqdim etmək mümkündür, çünki bütün inanclılar da dəlil-sübut əsasında teist olmurlar.

Tərifdə keçən "inkar" qeydinin digər bir əhəmiyyəti isə ateizmin aqnostisizmdən ayırd edilməsidir. Aqnostisizmdə Tanrının varlığı, yaxud da yoxluğuna dair heç

bir faktın olmadığı düşünülür. Bir aqnostik üçün nə Tanrının varlığını, nə də yoxluğunu isbat etmək mümkümdür. Aqnostisizmi ateizmlə əlaqələndirən, onun ateizmə yol açdığını, hətta "neqativ ateizm" olduğunu söyləyənlər də var. Lakin diqqətlə analiz etsək, bu fikrin yanlış olduğu aydın olar. Belə ki, ateistlərin ən böyük iddialarından biri də Tanrının var olduğuna dair ortada heç bir faktın olmamağının ateist olmaq üçün yetərli səbəb olmasıdır. Halbuki Onun varlığını isbatlayacaq faktın olmamağı kifayət etmir, var olmadığını da sübut edəcək fakt olmalıdır, çünki Tanrının var olduğu iddiası necə fakt tələb edirsə, var olmadığı iddiası da eyni şəkildə fakt tələb edir. Varlığa dair fakt yoxdursa, deməli, "Tanrı yoxdur" şəklində nəticə çıxarmaq məntiqli deyil. Hazırda elm dünyasında müzakirə olunan və isbatı üçün elmi faktların hələ də tapılmadığı bir çox fərziyyələr var. Lakin elm adamları bu faktoru əsas gətirərək həmin fərziyyələri inkar etmir, əksinə, müzakirə edir və araşdırmağa davam edirlər.

Bu qısa izahdan "rasional ateizm"in Tanrının var olmadığının faktlarla isbatı kimi anlaşılmalı olduğu aydın olur. "Rasional ateist" də bu faktları ortaya qoymağı bacaran şəxsə deyilir. Bunu bacarmayan isə artıq "irrasional ateist"dir. Burada qeyd olun nüanslar "teizm" və "teist" anlayışları üçün də keçərlidir.

## "Tanrı" ideyasını insanmı yaradıb?

Tarix boyu insanlar çoxsaylı tanrıların var olduqlarına inanıblar. Politeist (çoxtanrılı) dinlərdəki "Tanrı" təsəvvürləri adətən antropomorfikdir, yəni insanabənzərdir. Qədim yunan mifologiyasına görə, təbiət hadisələri fərqli tanrılar tərəfindən idarə olunur. Məsələn, baş "allah" olan Zevs səma və şimşək tanrısı, baş ilahə olan Hera evlilik və analığın ilahəsi, Poseydon dəniz və zəlzələlərin, Demetra məhsuldarlıq, kənd təsərrüfatı və fəsillərin, Aid yeraltı dünya və ölümün, Apollon incəsənətin, Ares isə müharibə və qırğınların ilahı idi və s. Bu ilahlara dair təsəvvürlərin hamısının insanların irrasional düşüncələrinin nəticəsi olduğu aydındır. İnsanlar təbiətdə baş verən hadisələrin elmi izahlarını tapa bilməyəndə, onların tanrılar tərəfindən idarə olunduğuna inanırdılar. Yuxarıda qeyd etdiyimiz kimi, o dövrdə tanrılar barədə təsəvvürlər tamamilə antropomorfik idi, yəni tanrıların insanlara aid xassələrə sahib olduqlarını düşünürdülər. Onlar da insanlar kimi qəzəblənir, şadlanır, öz aralarında savaşır, biri-birlərini cəzalandırır, evlənir, uşaqları olurdu və s. Bütün bu sadalananlar "Tanrı" ideyasının insanların qondardıqları

bir fikir olduğuna dair iddiaları təsdiqləyir, çünki insanabənzər bir varlıq heç vaxt Tanrı ola bilməz. Ateistlər bu faktlara istinad edərək "Tanrı" düşüncəsinin tamamilə insanlar tərəfindən uydurulduğunu söyləyirlər.

Qeyd olunan iddia müəyyən mənada doğrudur. Tarix boyu bəzi insanlar özlərindən Tanrı təsəvvürləri uydurublar, nəticədə çox sayda tanrıların olduğuna inanılıb. Bütün bu deyilənlər həqiqətdir və onları danmaq mümkün deyil, lakin burada belə bir sual yaranır: "Tanrı" anlayışı tamamilə insan icadıdırmı?

Bu suala obyektiv cavab tapmaq üçün mövzuya dair faktlara nəzər salmaq lazımdır. Əgər ortada Tanrının var olduğunu isbatlayan fəlsəfi faktlar varsa, deməli, "Tanrı" ideyası heç də ateistlərin iddia etdikləri kimi, insan icadı deyil. Sadəcə olaraq, bu ideya tədricən təhriflərə məruz qalmış, nəticədə politeist dinlər ortaya çıxmışdır. Təhrif fəaliyyəti çox vaxt şüursuz şəkildə həyata keçir. Yəni "Tanrı" anlayışını təhrif edənlər, bunu bilərəkdən, qəsdən etməyiblər. Bir yandan qorxu və cəhalət, digər yandan məntiqi mühakimələrdə yol verilən qüsurlar "Tanrı" anlayışının təhriflərə məruz qalmağına səbəb olub. Lakin nə qədər ki, ortada Tanrının varlığını, həmçinin Onun tək və bənzərsiz olduğunu isbatlayacaq faktlar var, "Tanrı" anlayışının uydurma olduğu iddiası da öz əhəmiyyətini itirəcək.

# Tanrının varlığını isbatlayan dəlil varmı?

Con Lennoksun dediyi kimi, ateistlərin "Allahın varlığı" mövzusuna dair ortaya atdıqları ən ciddi iradlardan biri də Allahın varlığını isbatlayacaq heç bir sübutun (proof) olmadığıdır. Onların fikrincə, Allaha inam başdan-ayağa irrasionaldır. İnsanlar ateist olaraq doğulur, lakin uşaq vaxtlarından yavaş-yavaş beyinləri yuyulur və tədricən inanclı olmağa sövq edilirlər. Əgər onlar seçim qarşısında qoyulsalar, heç vaxt inanclı olmağı seçməzlər. Tanınmış filosof Bertran Rassel, ona ünvanlanan "əgər öldükdən sonra o biri dünyada Allahla qarşılaşsanız və sizdən ona niyə inanmadığını soruşsa, nə cavab verəcəksiniz?" – sualına "niyə ortaya var olduğunu isbatlayacaq daha aşkar dəlillər qoymadığına dair izah tələb edərəm" şəklində cavab verib. Başqa bir tanınmış ateist filosof Maykl Skriven Allahın varlığına inanmaqla şaxta babanın var olduğuna inanmağın eyni dərəcə xurafat olduğunu söyləyir. Onun qənaətinə görə, ateizmin doğru bir mövqe olduğunu isbatlamaq üçün mütləq Allahın var olmadığını sübut edəcək də-

lillər axtarmağa lüzum yoxdur. Ortada heç bir sübutun olmamağı avtomatik olaraq ateizmin doğru bir fikir olduğunu sübuta yetirir.

Ateistlərin "Allahın varlığı" mövzusuna yanaşmaları bu səpkidədir. Bu fikirlərdə müəyyən həddə ifratın olduğu aşkardır. Belə ki, Allahın varlığını sübuta yetirəcək, ən azı, bu barədə insanı ciddi şəkildə düşünməyə vadar edəcək bir sıra arqumentlərin olduğu danılmaz bir faktdır. Bütün bunları heç saymaq və müzakirə etməyə belə lüzum görməmək, Con Lennoksun haqlı olaraq vurğuladığı kimi, məsələyə önyarğı ilə yanaşmaqdır. Əlbəttə, insan hər şeydən əvvəl mövzuya dair necə bir arqument və sübutun axtarışında olduğunu dəqiq şəkildə müəyyən etməlidir. İnsan bəzən fərqində olmadan mövzuya uyğun olmayan cinsdən sübutlar axtarışında olur. Amerikalı filosof Pol Kopan verdiyi seminarların birində, ondan Allahın var olduğunu isbatlayacaq sübutu ortaya qoymasını tələb edən dinləyiciyə verdiyi ilk sual belə olub: "Sübut" (proof) deyərkən, konkret olaraq hansı kateqoriyadan olan sübutu nəzərdə tutursunuz?" Dinləyici belə bir sualla ilk dəfə qarşılaşdığını etiraf edərək bu barədə düşünməli olduğunu söyləyir. Şübhəsiz, "Allahın varlığı" mövzusunda təcrübi elmlərdə istifadə olunan cinsdən, yəni müşahidə və təcrübəyə əsaslanan sübutlardan istifadə oluna bilməz. Baxmaya-

raq ki, həmin təcrübələrdən əldə olunan nəticələrdən "xammal" qismində istifadə etməyin heç bir problemi yoxdur.

İndi isə əsas mətləbə keçək. Allahın varlığını isbatlayacaq nə kimi önəmli arqumentlər var? Burada yalnız iki arqumenti qeyd etməklə kifayətlənəcəyik. Bu arqumentlər ateistləri tam qane etməsə də, ən azı, üzərində ciddi düşünməyə vadar edəcəkdir. Baxmayaraq ki, bu arqumentləri önyarğısız, obyektiv şəkildə araşdıran şəxslərin qane olacaqlarına şübhəmiz yoxdur. Əlbəttə, bu mövzular bir az da fəlsəfi hazırlıq tələb edir. Bu arqumentlərdən biri müsəlman filosofların irəli sürdüyü "siddiqlərin sübutu", digəri isə müasir elm adamlarının tez-tez istinad etdikləri "ağıllı dizayn" arqumentidir.

## “Siddiqlərin sübutu” arqumenti

Bu, müsəlman filosofların “Allahın varlığının isbatı” mövzusunda istinad etdikləri ən önəmli arqumentdir. Onu ilk dəfə tanınmış müsəlman filosofu İbn Sina irəli sürmüşdür. Daha sonra bu arqument bəzi filosoflar tərəfindən fərqli formalarda izah olunsa da, məzmun etibarilə hamısı eynidir. Arqumentə ilk olaraq varlığın real olduğu fikrinin qəbul edilməsi ilə başlanılır. Həm öz varlığımız, həm də ətrafımızda gördüyümüz hər şey realdır, həqiqətdir, yuxu və ya illüziya deyil. Bu həqiqəti inkar etmək heç bir şəkildə mümkün deyil, çünki gördüklərimizin və duyduqlarımızın hamısının yuxu olduğunu söyləsək, onların həqiqət olduqlarını inkar etsək belə, sonda yenə də eyni nəticəyə varırıq, yəni əgər bütün bunlar yuxudursa, o zaman “yuxu” adlanan fenomen gerçəkdir. Yuxu gerçəkdirsə, deməli, onu görən biri var. Onu görən biri varsa, deməli, görənin də varlığı gerçəkdir. Gördüyünüz kimi, varlığın real olduğunu nə qədər inkar etməyə çalışsaq da, sonda yenə də onun gerçək olduğunu qəbul etmək məcburiyyətində qalırıq.

Deməli, varlıq gerçək və həqiqətdir. Bunun real olduğunu etiraf etməkdən savayı başqa çıxış yolumuz yoxdur, əks təqdirdə səfsətəyə yol vermiş olarıq. Hansı bəhanəni gətirsək, hansı etirazı etsək, sonda bir yerda mütləq "varlıq" adlı dalana dirənəcəyik. Bundan qaçış yoxdur!

Növbəti mərhələdə "varlıq" anlayışının üzərində dayanırıq. Bütün fikir və diqqətimizi yalnız "varlıq" məfhumuna yönəldirik. Gəlin varlıq barədə analiz aparaq və onun həqiqətinə varmağa çalışaq: "varlıq nədir, hansı növləri var?" suallarına cavab axtaraq.

Fəlsəfədə varlığın məntiqi tərifi yoxdur. Varlıq – dərki aksiom olan bir həqiqətdir; hamı onu dərk edir və heç kim onun barəsində şübhə etmir. Lakin varlığın növlərinə gəldikdə, bu mövzu artıq fəlsəfi izaha ehtiyac duyur. Varlıq iki haldan xaric deyil:

Birinci versiyaya görə, bütün varlıqlar "mümkün varlıq"lardır, yəni var olan hər şey mahiyyət etibarilə var ola da bilərdi, olmaya da bilərdi. "Var olmaq" həmin nəsnələr üçün öz varlıqlarından qaynaqlanan zərurət deyil. Başqa sözlə desək, varlıq onların əsl həqiqətləri deyil. Deməli, "mümkün varlıq" dedikdə, bu xassələrə sahib olan varlıqlar nəzərdə tutulur.

Bu versiya fəlsəfi cəhətdən qəbuledilməzdir, çünki bu xassələri özündə daşıyan varlıq heç vaxt təkbaşına

yarana bilməz və mövcud ola bilmək üçün mütləq, səbəbə ehtiyac duyar. Niyəsi də verilən izahdan aydın olur. Var olması ilə yox olması eyni dərəcədə mümkün olan həmin varlıq özbaşına, arada heç bir vasitə olmadan necə yarana bilər?

Kimsə deyə bilər ki, düzdür, bu varlıqların hamısı var ola bilmək üçün səbəbə ehtiyac duyur, lakin mümkün varlıqların arasında baş verən yaranış prosesinin sonsuzadək davam etdiyini fərz etsək, bu hal bu versiya üçün məntiqli bir izah hesab oluna bilər və nəticədə yaranışı hansısa metafizik bir varlıqla əlaqələndirməyə də lüzum qalmaz.

Lakin qeyd olunan bu izah qənaətbəxş deyil. "Sonsuz silsilə" problemi fəlsəfədə məqbul sayılmır. Bu problemin nəyə görə yanlış və əsassız olduğunu bir cümlə ilə belə izah etmək olar: əgər səbəblər zənciri sonsuzadək uzanırsa, onda gördüyümüz nəticələr necə, nə zaman və hansı formada meydana gəliblər? Fərzə görə, səbəblər sonsuzadək uzanır, dayanmır, bitmir və nəhayəti, sonu yoxdur. Əvvələ, başlanğıca doğru nə qədər getsək də, bitmir, sonlanmır. Bəs bu nəticələr necə yaranıblar?

İkinci versiyaya gəldikdə, burada varlıqlar "zəruri" və "mümkün" olmaqla iki qismə ayrılır. Bütün "mümkün" varlıqlar hər şeyin başlanğıcı və ilk səbəbi olan "zəruri" varlıq tərəfindən yaradılıblar. "Mümkün" var-

lıqdan fərqli olaraq, “zəruri” varlığın mövcudluğu hansısa kənar gücün müdaxiləsindən asılı deyil, çünki onun varlığı əzəli, əbədi və zəruridir, heç vaxt yox olmaq təhlükəsi ilə üzləşmir. Bu kontekstdə artıq “sonsuz silsilə” problemi də öz mahiyyətini itirir, çünki yaradılış prosesi sonda bir nöqtədə dayanır.

## Rasselin “ilk səbəb” arqumentinə iradı

Teist dünyagörüşünə görə, materiyanı yaradan bir “ilk səbəb” var. Həmin səbəb olmasaydı, kainat da var olmayacaqdı. Materiya nə təsadüf nəticəsində öz-özünə yarana bilər, nə də özü özünü yarada bilər (qapalı dairə problemi). Hökmən yaradan super bir güc, üstün bir zəka olmalıdır. Lakin Bertran Rassel bu arqumenti zəif hesab edir. Özünün “Niyə xristian deyiləm” (Why I am not a christian) adlı kitabında “ilk səbəb” arqumentini tənqid edir. Rassel iddia edir ki, əgər hər şeyin bir səbəbi varsa, onda bu qayda Tanrıya da şamil olmalıdır və gərək Tanrını da yaradan bir səbəb olsun. Yox, əgər sözügedən qaydanın istisnaları varsa, onda kainatı da bu istisnaların arasına qatmağın nə problemi var? Kainat da Tanrı kimi səbəbə ehtiyac duymadan var olmuş olsun və beləliklə, kainatı kimin yaratdığı mövzusu da müzakirə obyektindən çıxsın.

Rasselin iradı yanlışdır. Özü filosof olsa da, təəssüf ki, bildirdiyi iradda çox kobud səhvlərə yol verib. Birincisi, teist filosof və teoloqların istinad etdikləri həmin qaydada hər şeyin bir səbəbinin olduğu deyilərkən,

“mümkün” varlıqlar nəzərdə tutulur, yəni varlıqları zəruri olmayanlar. Bu qayda heç bir şəkildə “zəruri” varlığa şamil olmur. Deməli, qaydanı Tanrıya şamil etmək qaydanı yetərincə anlamamaqdan irəli gəlir. İkincisi, Tanrı ilə kainat arasında müqayisə aparmaq başqa bir kobud səhvdir. Müqayisə olunan obyektlərin biri materiya, digəri isə metafizik nəsnədir və heç bir müştərək yönlərə malik deyillər. Belə olduqda, materiyaya aid olan bir qaydanı metafizik nəsnəyə necə və hansı əsasla aid etmək olar? Məsələn, dəmir 1538 °C-də əriyir. Yaxşı, görəsən, dəmir iradəli insanların iradələrindəki dəmiri də həmin temperaturda əritmək mümkündür, yoxsa mahiyyətcə iki fərqli nəsnənin arasında müqayisə aparmaq, ümumiyyətlə, kökündən absurd bir yanaşmadır?!

## “Ağıllı dizayn” arqumenti

Kainatda hökm sürən müəyyən qanunlar mövcuddur. Həmin qanunlar olmasaydı, kainat heç vaxt indiki vəziyyətinə gəlib çata bilməzdi. Bunlar o qədər incə və dəqiq hesablanmış qanunlardır ki, ateist dünyagörüşündə onların məntiqli izahını tapmaq imkansız olmasa da, olduqca çətindir. Lakin ağıllı dizaynın izahı teist dünyagörüşündə daha ağlabatan və sadə görünür.

“Ağıllı dizayn” arqumenti XX əsrin təqribən 70-ci illərindən aktuallaşmağa başlamışdır. Əvvəllər kainatın sonsuz və sabit olduğuna inanırdılar. Lakin belçikalı rahib, fizik, astronom Corc Lemetrin kainat barədə fikirləri kosmoloji təsəvvürlərdə yeni bir cığır açdı. O, nəzəri müstəvidə kainatın daim genişlənməkdə olduğunu isbatladı. Daha sonra Edvin Hoblun teleskopla apardığı müşahidələr Lemetrin nəzəriyyəsini təsdiqlədi. Edvin Hobl apardığı çoxsaylı müşahidələrin nəticəsində ulduzlardan gələn rəngin qırmızıya meyil etdiyini gördü. Bu da ulduzların uzaqlaşdığını təsdiqləyən əsas fakt idi. Ulduzlar uzaqlaşırsa, deməli, onlar əvvəllər yaxında – vahid bir mərkəzdə idilər. Buradan kainatın bir başlan-

ğıcının olduğu aydın olur. Böyük partlayışın nəticəsində yaranmış ulduzlar mərkəzdən sürətlə uzaqlaşırlar. Həmin partlayış vaxtı yüksək dərəcədə sıxlıq və temperatur (10000000000 °C ) olub. Alimlər kainatda mövcud olan hidrogen elementinin varlığının yalnız belə bir partlayışla izah oluna biləcəyini söyləyirlər, çünki onun yaranması üçün lazım olan temperatur məhz həmin partlayış vaxtı ortaya çıxıb. "Böyük partlayış" (Big Bang) nəzəriyyəsi kainatın sonsuz, əzəli və sabit olduğuna dair təsvvürlərin yanlış olduğunu ortaya qoydu. Kainatın bir başlanğıcının olduğu isbatlanmaqla, onun sonunun olacağı da sübuta yetmiş oldu. Belə ki, kainatın genişlənməyinə səbəb olan bu faydalı enerji bir gün tükənəcək və həmin vaxt artıq kainatın sonu olacaq. Bütün bu proseslər o qədər dəqiqliklə cərəyan edir ki, saniyənin milyardda biri qədər xırda bir sapma halında hər şey alt-üst olacaq və heç nə yaranmayacaqdı. Bütün bunları təsadüfə bağlamaq, həqiqətən, absurddur.

Kainatın başlanğıcının böyük partlayışla izah olunmağı hazırda fiziklər arasında ən populyar görüşdür. Lakin bunun əksini söyləyən yeni fikirlər də mövcuddur. Nobel mükafatı laureatı Rocer Penros böyük partlayışın yalnız bizim kainatın başlanğıcı olduğu barədə yeni bir fikir ortaya atıb. Onun qənaətincə, bu partlayışdan əvvəl də kainat olub və həmin kainatın yox olmağı-

nın nəticəsində yeni bir partlayış baş verib, bizim kainat yaranıb. Bu, kainatımızdakı faydalı enerjinin tükənməyindən sonra kainatın məhv olacağı və növbəti partlayışın nəticəsində yeni kainat yaranacağı deməkdir.

Rocer Penrosun bu fikri qeyri-adi deyil və gələcəkdə öz təsdiqini tapa bilər. Lakin burada izah edilməsi gərəkən bəzi suallar var. Məsələn, bu proses əzəlidirmi? Yəni bu cür onlarla, yüzlərlə, minlərlə, milyonlarla böyük partlayışların olduğunu fərz etsək belə, nəticədə bunun bir başlanğıcı varmı? Əgər başlanğıcı varsa, onda Tanrının varlığı öz təsdiqini tapır, çünki bu partlayışın təsadüf nəticəsində ortaya çıxdığını söyləmək olduqca absurddur. Milyardlara çatan bir temperatur yoxdan və təsadüfən necə ortaya çıxa bilər? Ən azı, iki – teist ve ateist – tezisin arasında analogiya aparsaq, hansı daha ağlabatandır? Məsələyə önyarğısız yanaşan kimsənin materialist tezisin daha məntiqli bir izah ortaya qoyduğunu söyləyəcəyinə inanmaq çətindir. Ən azı, hər iki izahın mümkünlüyünün üzərində düşünmək lazımdır.

# Termodinamikanın ikinci qanunu – Entropiya

Yaradılışla bağlı müxtəlif fərziyyələr var. Onlardan biri də "təkamül nəzəriyyəsi" kontekstində verilən izahdır. Bu nəzəriyyəyə görə, hər şey təsadüfən yaranmış və milyon illər davam edən təkamül prosesinin nəticəsində hazırkı vəziyyətinə gəlib çatmışdır. Bu izahın məqbul sayılmadığı teist dünyagörüşündə isə yaradılışın təsadüflərlə deyil, metafizik super güc tərəfindən yaradıldığı, nizama salındığı iddia olunur. Teistlər bu fikirlərini həm fəlsəfi, həm də təcrübi (empirik) dəlillərlə əsaslandırmağa çalışırlar. Fəlsəfədə bütün hadisələr "səbəb-nəticə" qanunu kontekstində izah edildiyinə görə, nəyinsə təsadüfən yaranmağı qeyri-mümkün hesab olunur. Fizikada isə bu məsələni termodinamikanın ikinci qanunu ilə izah etmək mümkündür. Termodinamikanın birinci qanununa əsasən enerjini yaratmaq və ya onu yox etmək mümkün deyil. O, sadəcə olaraq bir haldan başqa bir hala keçir. Termodinamikanın ikinci qanunu isə, sadə dillə desək, enerji axını haqqında olan qanundur. Məsələn, masanın üstünə qaynar su qoysanız, su tədricən soyuyacaq, çünki isti molekullar sudan tədricən uzaqlaşaraq ətrafa yayılacaq. Normal şərait-

də həmin molekullar heç vaxt suya geri qayıtmaz. Buna "entropiya", yəni "sistemin pozulması qanunu" deyilir. İstənilən maddi nəsnə tədricən köhnəlir, sıradan çıxır və heç vaxt əvvəlki ilkin formasına geri dönmür. Bunun səbəbi hər bir enerji çevrilməsində faydalı enerjinin faydasız enerjiyə çevrilməsidir. Belə olan təqdirdə, bir gün kainatdakı bütün faydalı enerji faydasız enerjiyə çevriləcək. Faydalı enerji bitən anda isə, yəni entropiya öz pik nöqtəsinə çatdıqda, artıq kainatda hərəkət də bitəcək, çünki hərəkətin mənşəyi məhz həmin faydalı enerjidir. Bu da kainatın sonu, məhv olması deməkdir. Kainatın sonlu olduğu, əbədi olmadığı fikri məhz bu qayda ilə öz təsdiqini tapır.

Teistlər "Entropiya" qanununa istinad edərək yaradılışda ağıllı dizaynın olduğunu iddia edirlər. Belə ki, kainatda tədricən nizamsızlığın yaranması əvvəldə burada nizam-intizamın olduğunu göstərən ən böyük faktdır. Bu fikri inkar edənlər isə kainatda əvvəl xaosun hökm sürdüyünü, sonralar isə bu xaosun tədricən hazırda kainatda mövcud olan nizam-intizamla əvəz olunduğunu deyirlər. Halbuki əvvəldə nizam yerinə xaosun olması fikri "Entropiya" qanunu ilə ziddiyyət təşkil edir.

Lakin ateistlər bu məsələdə ciddi elmi xətaya yol verildiyini söyləyir, "qapalı" və "açıq" sistem bölgüsünə diqqət yetirilmədiyini iddia edirlər. "Entropiya" qanunu, yəni "sistemdəki nizamsızlığın getdikcə artması" qapalı sistemdə, yəni kənardan heç bir enerji axını olmayan halda keçərlidir. Məsələn, dörd tərəfi bağlı olan və heç bir şəkildə kənardan enerji axının olmadığı bir otaqdakı bü-

tün əşyalar tədricən köhnələrək sıradan çıxmağa başlayacaq və heç vaxt əvvəlki vəziyyətinə qayıtmayacaq. Belə bir şəraitdə "Entropiya" qanununun təsirlərini görmək mümkündür. Lakin kənardan enerji axınının olduğu açıq sistemdə isə vəziyyət fərqlidir. Həmin enerji axınının nəticəsində sistemdə daim yenilənmə, tənzimlənmə prosesi gedəcək. Qapalı otaq misalından fərqli olaraq, kainatda daim "açıq sistem" hökm sürür. Buna görə də "Entropiya" qanununu kainata tətbiq etmək yanlışdır.

Məsələni iddia edildiyi kimi "açıq sistem" kontekstində izah etmək o qədər də məntiqli görünmür. Birincisi, kainatı bir bütün olaraq nəzərə aldıqda, nəticədə onun özü də qapalı sistemdir, çünki kainatdan kənarda heç bir şey mövcud deyil. Yuxarıda da qetd etdiyimiz kimi, bir gün kainatdakı bütün faydalı enerjilər ölü enerjiyə çevriləcək. İkincisi, açıq sistemdə daimi enerji axını olsa belə, nəticədə xaotik halda olan molekul yığınının mütəşəkkil forma almağı üçün təkcə enerji axınının olması kifayət etmir. Molekullar təkbaşına nəyi, necə və hansı formada edəcəklərini özləri müəyyən edən şüurlu, dərrakəli varlıqlar deyillər. Ən azı, bunun təsadüfən həyata keçməyi ilə təbiətüstü bir qüvvənin təsir və müdaxiləsi ilə həyata keçməyinin arasında müqayisə aparsaq, ikinci ehtimalın daha ağlabatan olduğunu görərik. Buradan termodinamikanın ikinci qanununun Tanrının var olduğunu söyləmək üçün məntiqli izah hesab oluna biləcəyi aydın olur.

# Təkamül nəzəriyyəsi Tanrının varlığını inkar edirmi?

Biologiyada təkamül nəzəriyyəsi dedikdə, canlıların sadədən mürəkkəbə doğru keçdikləri inkişaf mərhələləri nəzərdə tutulur. Bu nəzəriyyəyə əsasən canlı orqanizmlər başlanğıcda indi olduğu kimi çoxsaylı növlərdən ibarət deyildilər. Başlanğıcda sadəcə tək bir canlı orqanizm var idi. İllər ötdükcə həmin təkhüceyrəli orqanizmdən yeni-yeni növlər ortaya çıxmağa başladı. Bu proseslərin hamısı təsadüf nəticəsində, hansısa metafizik qüvvənin müdaxiləsi olmadan həyata keçib. Həmçinin dinlərin iddia etdiyi kimi hər növ ayrıca yaranmayıb. Hazırda mövcud olan növlərin hamısı onların ortaq əcdadı hesab olunan həmin ilk canlının milyon illər təkamül etməsi nəticəsində meydana gəlib. Qeyd olunan bu iddianı təsdiqləyən ən güclü dəlil isə arxeoloji qazıntılar zamanı tapılan fosillər hesab olunur. Fosil dedikdə, uzun müddət əvvəl yaşamış canlıların qalıqlarının təbii şərtlər altında qorunaraq günümüzə qədər çatan izləri nəzərdə tutulur. Əlbəttə, fosillərin bütün növləri deyil, yalnızca keçid fosilləri təkamül nəzəriy-

yəsinin doğru olduğunu isbatlaya bilər. Deməli, keçid fosilləri tapılmadığı təqdirdə adıçəkilən nəzəriyyə öz təsdiqini tapa bilməyəcək.

Təkamül nəzəriyyəsində iki faktor önəmli yer tutur: mutasiya və təbii seçmə. Mutasiya genetik kodlaşma zamanı yaranan xırda dəyişikliklərə verilən addır. Bu dəyişikliklər qısa zaman kəsiyində hər hansı bir ciddi dəyişikliyə yol açmır. Lakin bu proses milyon illər davam etdikdə növün dəyişməsinə səbəb olur. Deməli, hansısa fərdin orqanizmində gedən dəyişikliklər termin olaraq təkamül hesab olunmur. Bu dəyişikliyin təkamül hesab olunması üçün bu onun növünün özündə həyata keçməlidir.

İkinci önəmli faktor isə təbii seçim amilidir. Təbii seçim dedikdə, canlıların ətraf aləmə adaptasiyası (uyğunlaşması) nəzərdə tutulur. Belə ki, şəraitə uyğunlaşmağı bacaran canlılar həyatda qalır, bacarmayanlar isə yox olurlar.

Təkamül nəzəriyyəsi dedikdə, qısaca, bu yanaşma nəzərdə tutulur. Ateistlər ateizmin rasional şəkildə əsaslandırılmasında təkamül nəzəriyyəsinin önəmini xüsusi vurğulayırlar. Dovkinsin qənaətincə, adıçəkilən nəzəriyyə insana ateizm mövzusunda tam əminlik bəxş edir. Qeyd olunan nəzəriyyə sonralar fərqli səpkilərdə istifadə olunmağa başlandı. Məsələn, Herbert

Spenser özünün "sosial darvinizm" ideyasını ortaya atarkən bu nəzəriyyədən ilham almışdı. Spenserə görə, vəhşi təbiətdə müşahidə olunan həyat uğrunda mübarizə eynilə insanların yaşadığı cəmiyyətlərdə də gedir. Təbiətdə güclü olanlar ayaqda qaldığı kimi, insan cəmiyyətlərində də yaşamağı bacaranlar həyatda qalır və zəiflər məğlub olaraq yox olurlar.

Təkamül nəzəriyyəsinin teist düşüncə ilə ziddiyyət təşkil edən əsas yönü onun canlı həyatı tamamilə təsadüflərlə əlaqələndirməsidir. Halbuki, teist düşüncəyə görə, heç nə təsadüf nəticəsində yaranmayıb. Üstəlik, canlı həyatda baş verən proseslər təkamülçülərin iddia etdikləri kimi xaotik, məqsədsiz formada deyil, əksinə, tamamilə məqsədli və hədəfə uyğun olaraq həyata keçir.

Təkamül nəzəriyyəsindəki ən böyük boşluqlardan biri hər şeyin təsadüflə əlaqələndirilməsidir. Tutalım, təkamülçülərin iddia etdikləri kimi başlanğıcda yalnızca bir tək canlı orqanizm var idi və tədricən digər növlər ortaya çıxdılar. Buradan təkamül prosesinin məhz təsadüfi olaraq həyata keçdiyi və beləcə hər şeyin təsadüf nəticəsində yarandığı ideyası necə ortaya çıxır? Yəni təsadüflə bu deyilənlər arasında nə kimi bir əlaqə var? Fikrimizcə, bu proseslərdə təsadüfün olduğunu isbatlamaq üçün daha tutarlı faktlara ehtiyac var. Təkamül prosesi birbaşa Tanrının iradəsi ilə əlaqələndirilə

bilər və bunu inkar edəcək heç bir elmi və ya fəlsəfi fakt yoxdur. Ola bilsin, Tanrı növlərin məhz bu şəkildə yaranmalarını istəyib. Həmçinin təkamül prosesinin milyon illər ərzində eyni formada davam etməsi kainatda xaosun deyil, əksinə, ağıllı dizaynın olduğunun sübut edir. Xaos olmuş olsaydı, o zaman təkamülün bu şəkildə davamlı olması mümkünsüz olardı.

Təkamül nəzəriyyəsi ilk canlıdan təkamül prosesi nəticəsində sonrakı növlərin necə meydana gəldiyini izah etməyə çalışır, amma həmin ilk səbəbin necə yarandığına dair heç bir məntiqli izah irəli sürə bilmir. Həmin ilk canlının necə yarandığını isə teist yanaşma ilə izah etmək daha məntiqlidir, nəinki bunu təsadüflərə bağlamaq.

Təkamül nəzəriyyəsində mövcud olan digər bir boşluq isə bəzi növlərin heç bir mutasiyaya məruz qalmadan milyon illər yaşaması faktıdır. Məsələn, Latimeria balığına aid tapılan fosillərə istinadən alimlər onun 400 milyon il əvvəl yaşadığını, dinozavrlarla bir yerdə məhv olduqlarını düşünürdülər. Lakin 1938-ci ildə Cənubi Afrika sahillərində ovlanan balığın həmin Latimeria balığı olduğu məlum oldu. Balıq, aradan keçən milyon illər ərzində heç bir dəyişikliyə məruz qalmamışdı.

# İkimiz də ateistik?

Son zamanlar ateistlərlə aparılan debatlar zamanı bu məzmunda edilən etirazın yaman populyarlaşdığının şahidi oluruq: "Mən sənin inkar etdiyin minlərlə tanrılardan sadəcə birini inkar edirəm". Bu söz, əslində, Stiven Robertsə aiddir. O, maraqlı bir iddia səsləndirir: "Əslində, teistin ateistden elə də ciddi fərqi yoxdur, hər ikisi də ateistdir. Sadəcə arada kəmiyyət fərqi var". Tutaq ki, dünyada ibadət olunan tanrıların sayı təqribən üç mindir. Teist bunlardan 2999-nu inkar edir. Ateist isə teistin inkar etdiyi həmin tanrıların yanına, onun inandığı tanrını da əlavə edir. Deməli, onların hər ikisi ateistdir, çünki həmin teist də digər dinlərdəki tanrıları inkar edir. Daha sonra Roberts sözlərinə bunları da əlavə edir: "Belə olduqda, teistin ateisti qınamağı və ittiham etməyi yersizdir. Əgər teist digər tanrıların varlığını inkar etməyin arxasında dayanan məntiqi doğru-düzgün anlasa, o zaman ateistin də nəyə görə onun inandığı tanrını inkar etdiyini yaxşı başa düşəcək".

Robertsin iradında haqlı məqamlar var. Politeist dinlərlə müqayisədə monoteist (təktanrılı) dinlərdə yal-

nız tək tanrının var olduğuna inanılır, digər tanrıların mövcudluğu isə inkar olunur. Məsələn, müsəlmanlar hindlilərin, yaponların, çinlilərin, vikinqlərin, afrikadakı qəbilələrin, qədim yunanların inandıqları tanrıların varlığını inkar edirlər. Bu mənada müsəlmanlar da ateistdirlər. Yəhudi və xristian dininə gəldikdə isə müsəlmanların inancına görə, bu iki dində mövcud olan "Tanrı" təsəvvürü, sadəcə olaraq, təhrif olunub və reallığı əks etdirmir. Yəni burada artıq yəhudi və xristianların inandıqları Tanrının varlığı kökündən inkar olunmur, sadəcə olaraq, onların "Tanrı" təsəvvürünün yanlış olduğu iddia olunur.

Teistin digər tanrıların varlığını inkar etməsi ateistin bütün tanrıların varlığını inkar etməsi üçün tutarlı səbəb deyil. Robertsin dediyi kimi, bu inkarın arxasında dayanan məntiqi ümumilikdə anlamaq olar. Bu öz yerində, lakin inkara gəldikdə, edilən hər bir inkar elmi və ya fəlsəfi dəlillərə əsaslanmalıdır. Məsələn, kimsə Zevsin varlığını inkar edir və bu inkarını da tutarlı dəlillərlə əsaslandırırsa, bu ona səmavi dinlərdəki Tanrının da varlığını ortada heç bir tutarlı səbəb olmadan inkar etməyə əsas vermir. Mövzu daha da aydın olsun deyə, təcrübi elmlərdən müəyyən misallar çəkmək olar. Hazırda internetdə tibb, fizika, astronomiya və psixologiya elmlərinə dair nə qədər əsassız məlumatlar gəzir.

Həmin məlumatlar "elm" adı altında tirajlanır, halbuki elm adamları bunların sadəcə reytinq xatirinə uydurulmuş məlumatlar olduğunu söyləyirlər. İndi kimsə, məsələn, telepatiya, yaxud da kvant psixologiyasının əsassız bir nəzəriyyə olduğunu isbatlasa, buna istinadən də tibb və psixologiya sahəsində əldə edilən bütün elmi nailiyyətləri kökündən inkar etsə, bu nə dərəcədə məntiqli yanaşma hesab oluna bilər? Şübhəsiz, sağlam düşüncəli hər kəs bu yanaşmada ifrat və məntiqsizliyin olduğunu etiraf edər. "Tanrıların varlığı" mövzusu da bu qəbildəndir. Qədim yunan mifologiyasında inanılan tanrıların varlığı inkar olunur deyə, durub səmavi dinlərdə inanılan Tanrının varlığını inkar etmək heç bir halda düzgün yanaşma hesab oluna bilməz. Əlbəttə, kimsə tutarlı və obyektiv dəlillərə söykənərək ateist olarsa, bu artıq başqa məsələdir. Lakin teistlərin də bir mənada ateist olduqlarını əsas gətirərək ateizm düşüncəsinə haqq qazandırmaq artıq düzgün yanaşma deyil. Bu irad daha çox emosiyaları təhrik etmək məqsədi güdür. Bu qəbildən olan iradlar, adətən, kütləyə hesablanır və onlara təsir etmək məqsədilə geniş istifadə olunur. Lakin akademik mühitdə bu iradların heç bir elmi dəyəri yoxdur.

# Mən dinə deyil, elmə inanıram

Son zamanlar bu söz də ateistlərin arasında yaman məşhurlaşıb. Bunun səbəbi bəzi ateistlərin elmlə dinin arasında ziddiyyətin olduğunu düşünməsidir. Con Lennoksun xatirələrindən danışarkən universitetdə, ona elmdə karyera qurmaq və uğur qazanmaqdan ötrü Allaha olan inancını tərk etməyi üçün necə təzyiq olunduğunu qeyd etmişdik. Halbuki elmlə inancın arasında ziddiyyətin olduğunu söyləmək doğru deyil. Diqqət yetirsəniz, burada məhz inancla elmin arasında heç bir ziddiyyətin olmadığını vurğulamağa çalışırıq. Lakin dinə gəldikdə, hansısa dinlə elmin arasında ziddiyyətlərin olması mümkündür, hətta faktdır. Misal olaraq xristianlığın adını çəkmək olar. Kilsənin təsis etdiyi inkvizisiya məhkəməsinin 600 il ərzində elm adamlarının başlarına açmadıqları oyun qalmadı. Kimsə bu kontekstdə elmlə dinin ziddiyyət təşkil etdiyini söyləyə və konkret misallar çəkə bilər. Əlbəttə, bunun istisnaları da mütləq vardır. İnkvizisiya məhkəməsində mühakimə olunan elm adamlarının bir hissəsinin elə xristian olduqlarını nəzərə alsaq, aydın olur ki, insan-

ların dinlər barədə təsəvvürləri eyni deyil. Məhkəmədə elm adamını mühakimə edən xristianla elmlə məşğul olan və yeni kəşflərə imza atan xristianın hər ikisi də eyni dinin mənsublarıdırlar. Lakin görünən odur ki, həmin şəxslərin din haqqında təsəvvürləri arasında yerlə-göy qədər fərq var. Belə olduqda artıq hansısa dini, məsələn, xristianlığı misal çəkmək də bir qədər çətinləşir. Belə ki, sən qarşındakına inkvizisiya məhkəməsini misal çəksən, o da sənə elə həmin məhkəmədə mühakimə olunan xristian elm adamlarını misal çəkəcək. Deməli, nəinki təkcə elmlə Tanrıya inancın, hətta elmlə dinin arasında da ziddiyyətin olduğunu söyləmək elə də asan bir məsələ deyil.

Genetikanın banisi Qriqor Mendeli bir çoxunuz tanıyırsınız. O həm botanik, həm də rahib idi. Üstəlik, genetikaya dair kəşfini kilsənin həyətindəki noxud bitkilərinin üzərində apardığı təcrübələrin sayəsində etmişdi. Deməli, burada "din" təsəvvürü də müstəsna rol oynayır. İnsan var ki, din barədə təsəvvürü onun elmə qənim kəsiləcək işlər görməyinə səbəb olur, insan da var ki, inancının köməyi ilə insanlığa faydalı ola biləcək elmi kəşflərə imza atır.

Bütün bu deyilənlərdən Tanrının varlığını inkar etmək üçün elmə inanmağı bəhanə gətirməyin, əslində, nə qədər məntiqsiz bir yanaşma olduğu aydın olur. Tanrının varlığına inanmaq elmlə məşğul olmağa ma-

neə deyil. Hətta bəzi hallarda elmlə məşğul olmaq insanın inanclı olmağına belə, səbəb ola bilir. Məsələn, tanınmış genetika mütəxəssisi Frensis Kollins bir müddət ateist olduqdan sonra Allahın varlığına inandığını söyləmişdi. Maraqlıdır ki, Kollins laboratoriyada çalışarkən insan geninə (DNK) dair əldə etdiyi yeni kəşflərin, onu Allaha daha da yaxınlaşdırdığını və təbiətin fövqündə olan daha böyük bir gücün varlığını hiss etdiyini demişdi. Əgər elmə inanmaq inancla ziddiyyət təşkil edirsə, o zaman necə olur ki, yüzlərlə elm adamı həm də inanclıdırlar? Hətta aralarında elmlə məşğul olduqdan sonra Allahın varlığına inanan şəxslərin olduğunu da nəzərə alanda, qeyd olunan iddianın, əslində, nə dərəcədə əsassız olduğu bir daha aydın olur.

# İnanc individualdırmı?

Ateistlərə görə, inanc individualdır və obyektiv əsasları yoxdur. İnanclı bir şəxs ailə və mühitin təsiri altında inanclı olur. Uşaq yaşlarından aldığı təlqinlərin nəticəsində dindar bir şəxsiyyətə bürünür. Əslində isə hər bir uşaq ateistdir, inancsızdır. Nəinki təkcə inanclı və dindar biri olmaq, hətta inandığın dinin növünü seçmək üçün belə, heç bir obyektiv səbəb yoxdur. Hamısı insanın seçimindən asılı olmadan formalaşır. Riçard Dovkinsin bu haqda maraqlı bir yanaşması var. O deyir: "Əgər sən Amerikada dünyaya gəlmisənsə və müsəlman, yaxud da hindu dininə mənsub deyilsənsə, bunun səbəbi Amerikada doğulmağındır. Əgər Hindistanda dünyaya gəlsəydin, o zamam hindu olacaqdın; vikinqlərin zamanında Danimarkada dünyaya gəlsəydin, o zaman onların tanrıları olan Votana və Tora inanacaqdın".

Dovkinsin sözlərində haqlı məqamlar var. İnanc bəzən valideynin, yaxud da yaşadığın ölkədəki dini mühitin təsiri altında formalaşır. Uşaqlar ilk vaxtlar beyinin güzgü neyronlarının təsiri ilə gördükləri hər

şeyi yamsılamağa çalışırlar. Valideyninin ibadət etdiyini görən uşaq, onun hərəkətlərini təkrarlamağa və ibadət etməyə çalışır. Lakin valideyn bütün gün evdə rəqs edərsə, o zaman uşaq da ibadət etməyin yerinə rəqs hərəkətlərini yamsılamağa çalışacaq. Uşağın düşüncələrinin formalaşmağında valideyn və mühitin rolu danılmazdır. Lakin məsələ burasındadır ki, həmin uşaq böyüyüb, özünü dərk edəndən sonra necə? Əgər yetkinlik yaşına çatıb, hər şeyi analiz etmək, doğrunu yanlışdan, yaxşını pisdən ayırd edəcək bacarığa yiyələndikdən sonra da öz inancında qalmaqda davam edəcəksə, o zaman nə deyəcəyik? Yenə də inanclı olduğuna görə öz valideynini və yaşadığı mühiti günahlandıracağıqmı? Uşaq vaxtından inanclı böyüyənləri başa düşdük, bəs yetkin yaşdakı birinin əvvəl inancsız olduğu halda sonradan inanclı olmağını necə izah edək? Yuxarıda Frensis Kollinsdən misal çəkdik; əvvəl ateist olub, sonra aparadığı elmi araşdırmalar onun inanclı olmağına səbəb olub. Dünyada Kollins kimi nə qədər insan var. Onların inanclarının obyektiv olmadığını söyləmək, əslində, böyük insafsızlıq olardı.

Burada oxucunun diqqətini önəmli bir nüansa çəkmək istəyirik. Uşağın hadisələri təhlil etmə qabiliyyəti yoxdursa və düşüncələri də ailəsinin, yaşadığı mühitin təsiri altında formalaşırsa, onda bu amil istisnasız ola-

raq bütün predmetlərə eyni dərəcədə şamil edilməlidir. Yəni dindar mühitdə böyüyən bir şəxs necə mühitin təsiri altında inanclı olursa, eyni şəkildə ateist mühitdə böyüyən biri də məhz mühitin təsiri altında ateist olur. Dovkinsin deyimi ilə desək, bir insan Ərəbistanda doğulduğu üçün dindar olursa, o zaman başqa bir şəxs də Norveçdə doğulduğu üçün ateist olur. Burada artıq heç bir obyektivlikdən söhbət gedə bilməz. Yəni dindar olmaq kimi, ateist olmaq da artıq individualdır və obyektiv səbəbləri yoxdur. Belə çıxır ki, Dovkinsin özü də Hindistanda doğulsaydı, o da hindu olacaqdı. Yox, əgər ateizmi araşdıraraq seçdiyini iddia edirsə, o zaman araşdıraraq inanclı olanların inancını niyə "ailə" və "mühit" kimi faktorlara bağlayır?

## Allah varsa, niyə onu görmürük?

Var olan hər şeyi gözlə görmək istəyi adətən materialist düşüncədən qaynaqlanır. “Adətən” deməyimizin səbəbi bunun bəzi dini təlimlərdə də olmasıdır. Məsələn, əşərilər Allahın axirət günü gözlə görünə biləcəyinə inanır və bunu Allahın var olması ilə əlaqələndirirlər. Yəni Allah varsa, deməli, gözlə görünə bilər, çünki var olan hər şey, hətta Allah kimi metafizik bir varlıq belə, gözlə görünə bilməlidir.

Bu yanaşma kökündən yanlışdır. Birincisi, materialistlərin iddia etdikləri kimi, hər şey yalnız materiyadan ibarət deyil. Varlığı yalnız materiya ilə məhdudlaşdırmaq doğru yanaşma deyil. Müsəlman filosoflar mücərrəd (qeyri-maddi) nəsnələrin varlığını isbatlamaq üçün “zehin” faktorunun üzərində ciddi dayanırlar. Zehin elə bir nəsnədir ki, onun maddə olduğunu söyləmək çox çətindir. Əksinə, “məna”, “anlayış”, “düşüncə” və s kimi faktorlar zehnin mücərrəd bir fenomen olduğunu söyləməyə əsas verir. Bu, sırf fəlsəfənin mövzusu olduğu üçün üzərində çox dayanmaq istəmirik. İkincisi, əşərilərin iddialarının əksinə olaraq, var olan hər

şey gözlə görünə bilməz. Mücərrəd varlığın mahiyyəti doğru şəkildə analiz olunarsa, onun gözlə görünməyinin qeyri-mümkün olduğu da aydın olar. Çünki mücərrəd varlıq maddədən fərqli olaraq heç bir ölçüyə sahib deyil. Ölçüləri olmayan bir şeyi gözlə görmək isə qeyri-mümkündür.

İndi isə Allahın gözlə niyə görünmədiyi məsələsinə gələk. İnanclı kəsim bu məsələni izah edərkən, adətən, ağlı misal çəkir. Yəqin ki, bu məzmundakı arqumentasiyaya çox şahid olmusunuz:

*Ateist: Allah varsa, niyə onu gözlə görə bilmirik?*
*Dindar: Sənin ağlın var?*
*Ateist: Bəli, var.*
*Dindar: Varsa, göstər, görüm haradadır?*

Kütləyə təsir etmək baxımından çox effektli olmağına baxmayaraq, ağıl analogiyasının istifadə müddəti, fikrimizcə, çoxdan bitib. Çünki ateist biri ağılla bağlı ona ünvanlanan sualı çox asanlıqla belə cavablandıra bilər: bioloqlara görə, "ağıl" adlanan şey, əslində, beynimizdəki neyronların formalaşdırdığı şəbəkədən savayı bir şey deyil. Digər fenomenlərə fərqli adlar qoyduğumuz kimi, həmin şəbəkənin də adını "ağıl" qoymuşuq. Bu adlandırmaya dair çoxlu misallar çəkmək mümkündür.

Məsələn, "iş" adlı anlayışı kim gözlə görə bilər? – Əlbəttə ki, heç kim, çünki xarici aləmdə "iş" adlı maddi obyekt yoxdur. "İş" adlandırdığımız şey bir insanın evindən çıxaraq hansısa bir məkana gedib, orada müəyyən bir vaxtda gördüyü əmək fəaliyyətindən savayı bir şey deyil. Buna "iş" adı vermişik. Bioloqlar ağlı da bu formada izah edirlər. Ağlın beynimizdəki neyronların ətrafı dərk etməyə çalışarkən yaratdığı şəbəkədən savayı bir şey olmadığını söyləyirlər.

Yenidən əsas suala qayıdaq: "Allah varsa, niyə gözlə görünmür?" Niyəsini bilmək üçün əvvəlcə "Allah" adlı varlığın həqiqəti araşdırılmalıdır. Allah varmı? Onun var olduğunu iki dəlillə, yəni fəlsəfi və elmi dəlillə əsaslandırdıq. İndi isə növbə Onun necə bir varlıq olmasına çatır. Allah materiyadır, yoxsa onun fövqündədir?

Gəlin bu ehtimalları araşdıraq. Əvvəlcə Allahın "maddi" və "mücərrəd" varlıq olmağına dair qeyd olunan hər iki versiyanın da özlüyündə mümkün olmağını qeyd edək. Yəni "Allah varsa, onda mütləq, materiya olmalıdır" məzmunlu heç bir fəlsəfi və ya elmi fakt yoxdur. Deməli, mücərrəd olma ehtimalı da keçərlidir. Yaxşı, bəs faktlar hansı versiyanı dəstəkləyir? Ehtimalları bir-bir təhlil edək. Birinci versiya ağlabatan deyil, yəni Allah materiya ola bilməz, çünki materiyanın əsas xassələrindən biri "hərəkət"dir. Hərəkət üçün isə, fi-

ziklərin təbiri ilə desək, enerji lazımdır və həmin enerji kənardan təmin edilməlidir. Halbuki Allahdan savayı ikinci bir zəruri varlıq yoxdur ki, enerji müdabiləsi də olmuş olsun. Öz-özünü enerji ilə təmin etməyi də ağlabatan deyil, çünki bir şey ehtiyac duyduğu şeyi özü təmin edə bilməz və onu mütləq şəkildə kənardan əldə etməlidir. Əvvəldən özündə olsaydı, zatən həmin şeyə ehtiyaclı vəziyyətə düşməzdi. Deməli, birinci versiyanı dəstəkləyəcək heç bir fakt yoxdur.

İkinci versiyaya baxaq. Birinci versiyanın mümkünsüzlüyü isbatlandıqdan sonra avtomatik olaraq ikinci versiyanın doğruluğu sübuta yetir. Allahın var olduğunun əvvəldən isbatlandığını unutmayaq. Yəni bu mərhələdə "Allahın yoxluğu" artıq müzakirə mövzusu deyil. Deməli, Allahın materiya olmadığı sübuta yetirsə, artıq Onun varlığı yenidən müzakirə olunmur. Birinci versiyanın əsassız olmağı ikinci versiyanın doğru olduğunu sübuta yetirir. Mövcud ehtimallar ikidən çox olmadığına görə, bir versiyanın yanlış olduğu sübuta yetdikdən sonra ikinci versiyanın doğruluğu avtomatik olaraq isbatlanır. Deməli, burada əziyyət çəkib, Allahın mücərrəd bir varlıq olduğuna dair faktlar axtarmağa da ehtiyac qalmır. Baxmayaraq ki, belə bir arqumentasiyanın olmağı mövzunun daha dərindən dərk olunmasına səbəb olacaq.

Allahın mücərrəd və metafizik bir varlıq olmağı aydın olduqdan sonra Onun gözlə görünə bilməyəcəyi də aydın olur, çünki insan yalnız maddi nəsnələri gözlə görə bilər. "Maddi" olmayan nəsnənin varlığı isə gözlə görünməsə də, ağılla dərk edilə bilir.

# Allahın əzəli elmi və “azad iradə” problemi

Teistlərin fikrincə, Allah əzəldən hər şeyi qüsursuz şəkildə bilir. Yəni keçmişdə yaşanmış və gələcəkdə baş verəcək olan bütün hadisələrdən ən xırda detallarına qədər xəbərdardır. Bu düşüncə istər-istəməz insanın “azad iradə” məsələsini gündəmə gətirir. Əgər Allah insanların nə edəcəklərini əvvəldən bilirsə və Onun elmində yanlışlığa yer yoxdursa, belə çıxır ki, insanın heç bir seçim azadlığı yoxdur. Belə ki, Allahın bildikləri olduğu kimi həyata keçməzsə, bu zaman onun elmində nöqsan yaranar ki, bu da “qüsursuz Allah” inancı ilə ziddiyyət təşkil edir. Yox, əgər Allahın bildikləri olduğu kimi gerçəkləşəcəksə, bu zaman insanın seçim şansı qalmır. İnsan, sanki Allahın bildiklərinə uyğun şəkildə yaşamaq, həyat sürmək məcburiyyətindədir. Onun taleyi tamamilə Allahın elmindən asılıdır.

Bu iradda ciddi boşluqlar mövcuddur, çünki Allahın əzəli elminin necəliyinə dair heç bir məntiqli izah vermədən onun insanın azad iradəsi ilə ziddiyyət təşkil etdiyini demək tələskənlikdir. Üstəlik, insanın başına

gələcək şeylərin həmin elmdən asılı olduğu da sadəcə iddia olunur. Lakin əsas sual budur ki, həmin əzəli elm, bilik necə yaranıb? Burada istifadə edilən "yaranıb" sözünün dildəki məhdudiyyətlərdən qaynaqlandığına diqqət edək!

"Allahın elmi" İslam fəlsəfəsində ən qalmaqallı mövzulardan biridir. Buna görə də burada çox təfərrüata varmaq istəmirik. Qısaca qeyd edək ki, Allahın hər şeyi bilməsi insanın iradəsini heç bir şəkildə əlindən almır. Belə ki, Allah hər şeyi səbəblər üzərindən bilir, yəni nəyin necə olacağına səbəb olan amilləri bildiyi üçün nəticələri də əvvəlcədən bilə bilir. Hər şeyin səbəbi Allah olduğuna görə, onların potensiallarından ən xırda detallarına qədər xəbərdardır. Allahın hər şeyi əvvəlcədən bilməyinin olduqca məntiqli olmağı məhz buna görədir.

Bu cavab başqa bir iradı ortaya çıxarır. Allahın əzəli elminin insanın iradəsini əlindən almadığını başa düşdük, amma ən azı, bəzi insanların yaranışına mane ola bilməzdimi? Olmazdımı ki, Hitler, Stalin və ya Mussolini kimi tarixdə ad çıxarmış qatı cinayətkarların, qatillərin dünyaya gəlmələrinə mane olardı? Buna niyə mane olmadı?

Bu da əvvəlki irad kimi məntiqsizdir. Kainat determinist qanunlarla idarə olunur. Burada sonsuz sayda

səbəblər zənciri var və hadisələr bu kontekstdə cərəyan edir. Deməli, sistemə edilə biləcək ən xırda müdaxilə, onun dağılmağına və çökməsinə, nəticədə dünyanın məhv olmağına səbəb olacaq.

## Allah elə bir daş yarada bilərmi ki, onu özü qaldıra bilməsin?

Ateistlər "Allahın sonsuz qüdrəti" mövzusuna belə bir irad bildirirlər: əgər Allah teistlərin iddia etdikləri kimi, super gücə sahibdirsə, onda özünün belə, qaldıra biləməyəcəyi bir daş yarada bilərmi? Hər iki halda da Onun qüdrətinin məhdud olduğu üzə çıxacaq. Əgər belə bir daş yaratsa və qaldıra bilməzsə, deməli, gücü məhduddur. Yox, əgər yarada bilmirsə, deməli, yenə də mütləq güc sahibi deyil. Belə olduqda teistlər hansı əsasla Allahın mütləq qüdrət sahibi olduğunu iddia edirlər?

Bu irad da digərləri kimi məntiqsizdir. Lakin çox təəssüf ki, bəzən inanclıların özləri belə, bu sualın qarşısında çaşqınlığa düşürlər. Bir dəfə televiziyadakı verilişlərin birində bu sual din xadiminə verilmişdi. Həmin din xadimi Allahın hər şeyə qadir olduğunu, hətta istəsə, özü kimi on dənə allah da yarada biləcəyini söyləmişdi. Bu cavab başdan-ayağa səfsətədir. Belə çıxır ki, bir neçə Allahın var olması mümkündür. Halbuki həm fəlsəfi, həm də dini arqumentlər Allahın tək və şəriksiz oldu-

ğunu göstərir. Deməli, Allahın hər şeyə qadir olması məsələsi insanlara düzgün izah edilməlidir. “Allah hər şeyə qadirdir” dedikdə, var ola bilməyi mümkün olan nəsnələri yaratmağa gücünün yetməsi nəzərdə tutulur. Yəni bir şeyin əvvəlcə var olmağa potensialı olmalıdır ki, sonrakı mərhələdə Allahın onu yaratmağa gücünün olub-olmadığı müzakirə olunsun. Ümumiyyətlə, varlıq libasına bürünə bilməyən bir şey haqda qüdrət məsələsi müzakirə mövzusu ola bilməz, çünki həmin şey zatən yoxdur və zəruri olaraq yox olan haqda da onun yaradılıb-yaradılmaması sualı qüvvədən düşür.

# “Şər” problemi

“Şər” problemi teizmin əleyhinə istifadə edilən ən ciddi arqumentdir desək, yanılmarıq. Bu məsələ hər zaman insanları düşündürmüşdür. İranlı din filosofu Arəş Nəraqinin haqlı olaraq vurğuladığı kimi, “şər” problemi təkcə teistləri maraqlandıran bir məsələ deyil, ateistlər də bu məsələ ilə bağlı ciddi suallarla üzləşir və onları cavablandırmaq məcburiyyətindədirlər. Əks təqdirdə, ciddi mənəvi böhranlarla qarşılaşa bilərlər. Məsələn, hansısa təbii fəlakət zamanı sevdiklərini itirən, yaxud da həyatda heç bir uğur qazanmayan, problemlərdən əziyyət çəkən birisi üçün həyat mənasız, puç görünür. Belə bir şəxsi daim düşündürən və narahat edən bir məsələ var: həyatın mənası nədir? Görəsən, problemlərin heç vaxt əskik olmadığı belə bir dünyada yaşamağa dəyərmi? İntihar çıxış yoludurmu? Bu qəbildən olan suallar heç vaxt bitmək bilmir və insanı hər zaman düşündürür, narahat edir, bəzən mənəvi iztirablar çəkməsinə, həyatdan küsməsinə səbəb olur. Həyata yenidən məna qatmaq və yaşamaq əzmini yüksəltmək üçün bu suallara məntiqli cavablar tapmaq lazımdır. Bunun üçün də “şər” problemi həll olunmalıdır.

Gördüyünüz kimi, "şər", bütün insanları düşündürən bir məsələdir, lakin bu kitabda mövzumuz şərin teist dünyagörüşü ilə əlaqəli olan hissəsidir. Tanrının varlığını inkar edənlərə görə, "şər"in varlığı ilə Tanrının varlığı heç vaxt bir arada ola bilməz. Belə ki, Tanrı – teistlərə görə – mütləq alim, mütləq qadir və mütləq xeyirxahdır. Əgər Tanrı varsa, onda şərin varlığını bildiyi və insanlara qarşı xeyirxah və mehriban olduğu üçün onu yox etməli və onların əziyyət çəkmələrinə göz yummamalıdır. Yox, əgər şər varsa və həyatımızın ayrılmaz bir parçasına çevrilibsə, deməli, "tanrı" adlı varlıq real deyil, mifdir. Qədim yunan filosofu Epikür "şər" arqumentini bu cür izah edirdi:

1. *Əgər Tanrı şərin qarşısını almaq istəyirsə və buna gücü yetmirsə, onda O, mütləq qadir deyil.*
2. *Əgər Tanrının şərin qarşısını almağa gücü yetirsə, amma bunu istəmirsə, onda Onun özü də "şər"dir, yəni mütləq xeyirxah deyil.*
3. *Əgər Tanrının şərin qaşısını almağa gücü yetirsə və bunu etməyə çalışırsa, onda niyə hələ də dünyada şər var?*

Epikür "şər" mövzusunda ehtimal oluna biləcək bütün versiyaları sadalayır. Birinci versiyanı qəbul etsək, o zaman Tanrının mütləq qüdrət sahibi olmadığı aydın olur. İkinci versiya isə Tanrının özünün də "şər" olduğu

nəticəsini ortaya çıxarır. Qeyd olunan iki versiya teistlərin inandıqları "Tanrı" anlayışı ilə ziddiyyət təşkil edir. Üçüncü versiyada isə qəribə bir müəmmalılıq var. Əgər Tanrının şərin qarşısını almağa gücü yetir, bunun üçün çalışırsa, amma buna baxmayaraq, yenə də dünyada şər varsa, deməli, ya Tanrının gücü yetərsizdir, ya da şərin varlığına özü icazə verib. Yəni Epikürün dediyi kimi: Onun özü də şərdir. Bu versiya da mütləq qüdrət, mərhəmət və elm sahibi olan "Tanrı" anlayışı ilə ziddiyyət təşkil edir.

# Şərin növləri

"Şər" mövzusu üç fərqli aspektdə nəzərə alına bilər:

1. *Metafizik şər* – "metafizik şər" dedikdə, məqsəd kainatın ümumilikdə nöqsanlı yaradılışıdır. Belə bir yaradılışın nəticəsi yer üzündə insanların iztirab çəkmələrinə səbəb olan hadisələrin baş verməsidir.

2. *Təbii şər* – "təbii şər" (natural evil) dedikdə, təbiətdə zəlzələ, tufan, sel və s. kimi baş verən təbii fəlakətlər nəzərdə tutulur. Bu hadisələr ciddi tələfatlara yol açır və çox sayda insanların ölümləri ilə nəticələnir.

3. *Əxlaqi şər* – "əxlaqi şər" (moral evil) dedikdə isə qətl, oğurluq, zorlanma, yalan danışmaq, fırıldaqçılıq və s. kimi insan iradəsindən asılı olan hadisələr nəzərdə tutulur. Təbii şərdən fərqli olaraq, əxlaqi şər insanın azad iradəsinin nəticəsidir və onun davranışlarından asılı olaraq meydana gəlir.

# Alvin Plantinqa və “azad iradə” arqumenti

Alvin Plantinqaya görə, “azad iradə” adlı arqumentlə şər problemini həll etmək mümkündür. Nəzərinizə çatdıraq ki, Plantinqanın həll etməyə çalışdığı şər problemi yalnız “əxlaqi şər” ilə əlaqəlidir. Bu arqumentə görə, insan ixtiyar sahibi və azad varlıqdır. O, gördüyü işlər üçün seçim edə bilir. Həyatı mənalı edən də məhz insanın bu şəkildə – azad yaradılmasıdır. Əgər insan yalnız yaxşı işləri görmək üçün proqramlanmış şəkildə yaradılsaydı, o zaman onun robotdan heç bir fərqi olmaz, nəticədə həyat və əxlaqi normaların heç bir mənası qalmazdı. Dünyada üzləşdiyimiz şərlərin qaynağı da məhz insanın azad iradəsidir. İnsan seçim edərkən bəzən pisi yaxşıdan üstün tutur və şərin meydana gəlməyinə səbəb olur. Bu kontekstdə şərin qaynağı Tanrı deyil, məhz insanın özüdür. Lakin burada “bəs Tanrı niyə şərin qarşısını almır?” – deyə soruşula bilər. Yəni insanın öz azad iradəsindən düzgün istifadə etmədiyinə görə şərin yaranmasına zəmin yaratdığı doğrudur, amma yenə də mütləq qüdrət sahibi olan Tanrı

bunun qarşısını ala bilər. Plantinqanın qənaətinə görə, Tanrı insanın iradəsinə müdaxilə edərək şərin qarşısını ala bilməz. Bu, Tanrının mütləq qüdrət sahibi olması təsəvvürü ilə də ziddiyyət təşkil etmir, çünki belə bir şey, ümumiyyətlə, mümkün deyil. Tanrının qüdrəti o zaman müzakirə mövzusu olardı ki, O bunu etməyi bacardığı halda etməzdi.

## Şər "yoxluq"dur

"Şər" probleminə dair irəli sürülən digər bir həll yolu da onun "yoxluq" olmasıdır. Yəni şər, ümumiyyətlə, mövcud deyil, nəticə etibarilə də "Tanrı varsa, şər niyə var?", "Tanrı niyə şərin yaranmasına icazə verir?" tipli suallar mənasızdır. Burada bir nüansa fikir vermək lazımdır. Bəzən şərin "yoxluq" olduğu fikri düzgün anlaşılmır. Şər yoxluqdursa, o zaman bu qədər fəlakətlər, acılar və problemlər haradan qaynaqlanır? Deməli, "şər yoxluqdur", – fikrini bir qədər aydınlaşdırmaq lazımdır. Müsəlman filosoflar şərin "yoxluq" olduğunu söyləyərkən, məqsədləri onun mənşəyidir. Yəni şərin mənşəyi, əslində, xeyrin olmamağıdır. Məsələn, ölüm şərdir, amma "ölüm" adlanan bu fenomen ayrıca bir varlıq deyil, əslində, həyatın aradan getməyi, yox olmağıdır. Həyat, dirilik və mövcudluq başdan-ayağa xeyir, onun yoxluğu isə şərdir. Məhz "həyat" adlı xeyrin aradan getməsi ilə "ölüm" adlanan şər ortaya çıxır və insanların acı çəkmələrinə səbəb olur. Bu kontekstdə artıq "Tanrı varsa, niyə şər var?" – sualı da öz cavabını tapır. "Şər" fenomeni, əslində, xeyrin aradan getməsidir. Bəzən şəri varmış kimi ifadə etməyimiz isə məcazi məna daşıyır.

# Şərin zəruriliyi

Alvin Plantinqanın "azar iradə" və müsəlman filosofların şərin "yoxluq" olduğuna dair arqumentləri şərin daha çox əxlaqi növünə aid iradlarla əlaqəlidir. Belə ki, insanın azad iradə sahibi olmağının təbiət hadisələri ilə heç bir əlaqəsi yoxdur. Zəlzələ, sel və tufan insan yer üzündə mövcud olmamışdan əvvəl də var idi, indi də var. Şərin "yoxluq" olduğuna dair qeyd olunan versiyanı da təbii fəlakətlərin hamısına aid etmək mümkün deyil. Tutaq ki, bir insan əlini yüksək cərəyanın olduğu naqilə vurur və bu səbəbdən dünyasını dəyişir. Aydındır ki, burada hansısa fiziki yoxluqdan söhbət gedə bilməz, çünki ölümlə nəticələnən bədbəxt hadisənin səbəbi olan elektrik cərəyanı varlıqdır.

Qeyd olunan hər iki arqument əxlaqi şərləri izah etmək üçün yetərli hesab oluna bilər və bu kontekstdə müzakirəyə açıqdır. Lakin "təbii şər" problemini həll etmək üçün fərqli bir konsepsiyaya ehtiyac var. Fikrimizcə, təbii şəri izah etməyin ən uyğun variantı, onu təbiətin ayrılmaz və zəruri bir hissəsi hesab etməkdir. Yəni şər elə bir fenomendir ki, materiyanı onsuz təsəvvür etmək mümkün deyil, izahı da çox sadədir. Ma-

teriyanın xassələrinə diqqət yetirdikdə, onun heç vaxt mükəmməl və qüsursuz olmadığı aydın olur. Qüsur olan yerdə problemlərin olmaları da qaçılmazdır. Belə olduqda, problemsiz bir həyat arzulamaq, əslində, sadəlövhlük olardı, çünki maddi dünyamızın bizə belə bir qüsursuz həyat bəxş etmək potensialı yoxdur.

Yaxşı, bəs Tanrı niyə bu dünyadan daha yaxşısını yaratmadı? Elə bir dünya yaradardı ki, orada təbii fəlakətlər, ölüm-itim olmaz, hamı qayğılardan uzaq və şad-xürrəm həyat sürərdi. Əgər yarada bilmirsə, deməli, mütləq qüdrət sahibi deyil. Yox, gücü yetdiyi halda yaratmırsa, deməli, xeyirxah deyil və insanların əziyyət çəkmələrini istəyir. Deməli, Epikürün də dediyi kimi, Tanrının özü də şərdir.

Elə suallar var ki, insan o sualları verərkən heç vaxt onları məntiq süzgəcindən keçirmir. Sualın məzmunundan onun reallıqdan nə qədər uzaq olduğu aydın olur. Məsələn, elə yuxarıdakı suala nəzər salaq: "Heç bir təbii fəlakətin olmadığı dünya" dedikdə, konkret olaraq nə nəzərdə tutulur? Həmin dünyada materiya var, yoxsa yoxdur? Materiya varsa, deməli, təbii fəlakət də mütləq şəkildə olacaq. Bunun niyəsini yuxarıda izah etdik. Təbii fəlakətlərin olmadığı yeganə aləm "mücərrəd aləm"dir. İnsanın belə bir aləmdə dünyaya gəlməsi və yaşaması isə mümkün deyil, çünki "insan" adlı varlı-

ğın həyatının başlanğıc mərhələsini materiyasız təsəvvür etmək mümkünsüzdür. Deməli, insanın qüsursuz bir aləmdə yaşamağı fikri tamamilə cəfəngdir. Bu kontekstdə "Tanrının qüdrəti" də artıq müzakirə mövzusu deyil.

Yuxarıda insan həyatının məhz başlanğıc mərhələsini materiya ilə əlaqələndirdik. Bu, təsadüfi deyil, çünki kitabı diqqətlə mütaliə edən oxucunun zehnində cənnətlə bağlı müəyyən suallar mütləq yaranacaq. Müsəlman filosofların bir çoxunun düşüncəsinə görə, cənnət həyatı materiyadan xalidir və orada materiyadan əsər-əlamət yoxdur. Materiya yoxdursa, deməli, orada təbii fəlakət, acı, qəm, iztirab, kədər də yoxdur. Cənnətdə daim şadlıq və sevincin olmağı məhz bu faktorla izah olunur. Deməli, qəm-kədərsiz və qayğısız bir aləm təsəvvürü, iddia olunduğu kimi, heç də puç deyil, gerçəkdir. Lakin cənnətin maddi dünyanın təbii davamı və nəticəsinin olmağı nüansına diqqət yetirmək lazımdır. Cənnətdə olmaq üçün əvvəlcə bu dünyada yaşamaq, onun sınağından çıxaraq cənnətin yaranmağına vəsilə olmaq lazımdır. Yəni cənnət, əslində, bizim yaşayışımızın, davranışlarımızın və fəaliyyətlərimizin təbii nəticəsi, onu yaradan əsas səbəbdir. Deməli, bu dünya olmazsa, cənnət də heç vaxt olmayacaq. Ona görə də birbaşa cənnətdə yaranmaq fikri sadəcə fantaziyadır və reallıqdan tamamilə uzaqdır.

## Aqnostik yanaşma

“Şər” probleminə dair digər bir yanaşma isə “aqnostik” yanaşmadır. Frensis Kollins verdiyi müsahibələrin birində “şər” mövzusunda aqnostik mövqedə olduğunu söyləyib. Kollins burada Tanrının özü ilə Onun davranışı və feili arasında fərq qoyur. O, inanclı olduğunu, Tanrının varlığını qəbul etdiyini deyir, lakin Onun feilləri mövzusuna aqnostik yanaşır. Bu həm şərin, həm də Tanrının varlığının gerçək olduğu anlamına gəlir. Lakin Tanrının nəyə görə şərin varlığına icazə verdiyi məlum deyil. “Şər” mövzusundakı bu müəmma Tanrının varlığını inkar etməyə heç bir halda əsas vermir. Tanrının varlığı tutarlı dəlillərlə isbatlandıqdan sonra Onun feillərindəki müəmma və məlumatsızlıq səbəbilə Onun varlığını inkar etmək məntiqli deyil. Belə bir məqamda inkar mövqeyinin əvəzinə aqnostik mövqeni seçmək ən doğru yanaşmadır.

Quranda da aqnostik yanaşmaya dair müəyyən işarələr var. Quranda insanın yaranışını müşahidə edən mələklər Tanrıdan yer üzündə qan tökəcək və fəsad törədəcək bir varlığı nəyə görə yaratdığını soruşurlar.

Tanrı isə onların bu işin sirrindən xəbərsiz olduqlarını söyləməklə kifayətlənir və heç bir təfərrüata getmir. Mələklərin insanla bağlı o andakı təsəvvürləri tamamilə aqnostikdir. Yəni Tanrının varlığına inanır, eyni zamanda insanın yer üzündə şər törədəcəyini də bilirlər, amma Tanrının insanı niyə yaratdığını və nəticədə şərin varlığına nəyə görə icazə verdiyini bilmirlər.

## Ateizmə yönəlmədə "şər" probleminin təsiri

İnsanın başına gələn acı hadisələrin psixoloji travmalar yaratdıqları danılmaz faktdır. Bu kimi hallar bəzən insanın Allahdan küsməsi ilə nəticələnir. Bu, ateistlərin hər zaman yalnız elmi və ya fəlsəfi arqumentlərə söykənərək ateist olduqları fikrinin inandırıcı olmadığına görədir. Acılar, dərdlər və bitməyən problemlər bəzən insanın qəlbində Allaha qarşı etirazların baş qaldırmasına, onun üsyankar davranmasına səbəb olur. Nə qədər dəqiq olduğunu bilməsək də, internetdə yayılan bir məlumata əsasən, tanınmış elm adamı, iki fərqli sahədə – fizika və kimya – Nobel mükafatı qazanmış Mariya Sklodovskaya Kürinin anası və bacısı vəfat etdikdən sonra inancını tərk edərək aqnostik (yaxud da ateist) olduğu deyilir. Ateizmin son 100 ildə Avropada sürətlə yayılmasında dünya müharibələri, qırğınlar və soyqırımların ciddi təsirlərinin olduğu iddia edilir. Bunun səbəbi inanclı təbəqənin təsəvvürlərində kök salmış "Tanrı" anlayışından praktikada istədikləri reaksiyanı görə bilməmələridir. Entoni Flunun bu barədə maraqlı bir iradı var. O deyir: "İnanclı birinə görə, Tanrı hər kəs-

dən, hətta insana onun öz valideynindən də mehribandır. Lakin, məsələn, xərçəng xəstəliyinə yoluxmuş və ölüm ayağında olan bir uşaq üçün atası nə qədər çırpınsa da, özünü nə qədər dağa-daşa vursa da, ondan daha mərhəmətli olduğu düşünülən Tanrı heç bir iş görmür və ölümünə mane olmur. Bu necə mərhəmətdir ki, sevdiyinə yardım əlini uzatmır?"

Alınan travmalar müxtəlif dərəcələrdə ola bilər, lakin reallıq həmin travmaların insanın ateist olmağı ilə nəticələnəcək şəkildə ağır ola bilməsidir. Bu, ateizmə yönəlmənin arxasında heç də hər zaman elmi və ya fəlsəfi arqumentlərin dayanmadığını bir daha göstərir. Burada travmaların rolu az deyil. Halbuki bu kimi hallarda Tanrıdan küsüb, ateist olmaq heç də rasional yanaşma deyil, çünki Tanrının bu işlərə birbaşa müdaxilə etməməsi Onun varlığını inkar etməyə əsas vermir. Bundan əlavə, ortada Tanrının varlığını isbatlayan bir çox elmi və fəlsəfi faktlar var. Ola bilsin, deistlərin düşündükləri kimi, Tanrı dünya işlərinə müdaxilə etmir. İnsan, ən azı, çaşqınlıq yaradan bu kimi hallarda aqnostik mövqe tutmalıdır. Yaxud da Frensis Kollins misalında olduğu kimi, Tanrının varlığını qəbul edib, onun feilləri mövzusuna aqnostik yanaşa bilər. Lakin birbaşa ateizmə yönəlmək heç bir şəkildə məntiqli deyil, çünki ortada keçilməsi gərəkən bir neçə mərhələ də var.

Ölkədaxili və ölkəxarici bütün ünvanlara çatdırılır.
Ölkədaxili bütün ünvanlara pulsuz çatdırılır.

Digər və yeni nəşrlərimiz üçün aşağıdakı
ünvanlardan əlaqə yarada bilərsiniz.

Facebook:
**İbrət Nəşrləri**

Instagram:
**ibret_nesrleri**

You Tube:
**İbrət Nəşrləri**

WhatsApp və zəng üçün:
**055 829 26 26**
**077 629 26 26**

Çapa imzalanmışdır: 00.00.2021

Formatı 60×90. 1/16.

Həcmi 4,75. ç.v. Sifariş № 000 Tiraj 000

“Max ofset” mətbəəsində
təqdim edilmiş hazır material əsasında
çap olunmuşdur.

Aşurbəyovlar küç. 8A, AZ1080 Bakı
www.maxofset.az | info@max-offset.com
(+994 12) 451 88 10; mob: +994 77 227 27 27